# Strateji münasibətlər yeni mərhələyə yüksəlir

## İki ölkə arasında imzalanmış sənədlər əlaqələrin daha da inkişafına müsbət təsir edəcək



**"Azərbaycanın Pakistanla dostluğu və qardaşlığı tarixi köklərə söykənir. Pakistan 1991-ci ildə Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkələrdən olub. Pakistan Ermənistanı torpaqlarımızı işğal etdiyinə görə tanımayan qardaş ölkədir. 44 günlük Vətən müharibəsi dövründə də Pakistanın qardaş ölkə kimi verdiyi siyasi və mənəvi dəstək heç vaxt unudulmayacaq. Ölkələrimiz BMT, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, D-8 və digər beynəlxalq təşkilatlarda hər zaman bir-birinin mövqeyini dəstəkləyir. Belə ki, Pakistan bütün beynəlxalq platformalarda Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyib və Ermənistanın işğalının dayandırılmasını tələb edib".**

Bu fikirləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Azər Badamov deyib. O bildirib ki, Azərbaycan da müəyyən məsələlərdə Pakistanın yanında olduğunu hər zaman açıq şəkildə ifadə edir. "İki ölkənin dövlət başçıları mütəmadi olaraq qarşılıqlı səfərlər edir və müxtəlif platformalarda görüşərək çoxtərəfli əməkdaşlığa dair fikir mübadiləsi aparırlar. Ölkələrimiz strateji tərəfdaşdırlar. Keçən il bu ölkəyə rəsmi səfərə gedən Prezident İlham Əliyev Pakistanda xüsusi şəkildə qəbul edilmişdi. Bu, bizim bir-birimizə nə qədər yaxın və doğma olduğumuzun nümayişi idi. Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərifin Azərbaycana dövlət səfəri çərçivəsində ikitərəfli və geniş tərkibdə görüşlər keçirilib və bir sıra sənədlər imzalanıb. Dövlət başçılarının mətbuata verdiyi açıqlamalar zamanı Prezident İlham Əliyev Pakistana 2 milyard dollardan artıq sərmayənin yatırılmasına hazır olduğumuzu və bunun üçün məsələlərin bir ay ərzində müəyyən edilməsi barədə tapşırıqlar verildiyini bildirdi", - deyə A.Badamov əlavə edib.

Deputat qeyd edib ki, ölkələrimiz arasında iqtisadi əlaqələrin genişlənməsi üçün potensial böyükdür və hökumətlərarası komissiyaların keçirdikləri mütəmadi görüşlərdə, biznes-forumlarda bu əlaqələrin genişləndirilməsi imkanları, qarşılıqlı investisiya imkanları müzakirə olunur. 24 fevralda keçirilmiş Azərbaycan-Pakistan biznes-forumunda da dövlət başçılarımız ikitərəfli əməkdaşlığın dərinləşdirilməsinə dair bir çox məsələlər ətrafında fikirlərini bildiriblər. Enerji sahəsində əməkdaşlığı genişləndirmək, mavi qazın Pakistana ixrac edilməsi, əczaçılıq və hərbi sənaye sahəsində birgə müəssisələrin yaradılması, kənd təsərrüfatı və digər sahələr üzrə əməkdaşlığın dərinləşdirilməsi məsələləri müzakirə olunub. "Pakistanla siyasi münasibətlərimizin çox yüksək səviyyədə olmasına baxmayaraq, iqtisadi sahədə əməkdaşlıq dostluq və qardaşlığımızın səviyyəsinə uyğun gəlmir. Amma dövlət başçılarının qarşılıqlı səfərləri çərçivəsində aparılan müzakirələr və imzalanan sənədlər ölkələrimiz arasında bu sahədə də əməkdaşlığın inkişafına töhfə verəcək", - deyə deputat bildirib.

A.Badamov deyib ki, iki ölkə çətin günlərdə bir-birinin yanında olub. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu mütəmadi olaraq pakistanlı qardaşlara yardımlar edib. Ali məktəblərimiz əməkdaşlıq edir və qarşılıqlı şəkildə ölkələrimizə həsr edilmiş kafedralar yaradılıb.

Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərifin səfəri çərçivəsində dövlət başçıları arasında aparılmış müzakirələr və imzalanmış sənədlər ölkələr arasında əlaqələrin inkişafına yeni impuls verəcək.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

Azərbaycan.- 2025.-27 fevral (№44).- S.7.